

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 oktyabr 2023-cü il №76 (2788) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Oktyabrın 4-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi əhəmiyyətli humanitar yardıma, xüsusilə qış şəraitində enerji sektoruna verilən dəstəyə görə təşəkkürünü bildirib.

Telefon söhbəti əsnasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə bir daha dəstək ifadə olunub, regional təhlükəsizlik, mövcud təhdidlər və gələcək əməkdaşlıq formatlarına dair fikir mübadiləsi aparılıb.

* * *

Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə edib. O vurğulayıb ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək bunu yüksək qiymətləndirib.

Dövlətimizin başçısı Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd edib, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlər göstərildiyini deyib, müvafiq qeydiyyat proseslərinin başladığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiklərini bildirib, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırıb.

## 10 oktyabr Azərbaycan xalqının həyatında əlamətdar tarixdir



1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi...

Azərbaycanın müstəqilliyini dünyanın əksər dövləti tanıdı.

Həm Ermənistanın ədalətsiz müharibəsi, həm də respublika daxilində baş verənlər (hakimiyyət boşluğu, səriştəsizlik, iddialar, separatçılıq və s.) qarşıdurma yaratmaqda idi. Xalq təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Bu, Azərbaycan dövlətçiliyini labüd iflasdan xilas etdi.

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkiləri xalq üçün mühüm tarixi hadisə ola bilərdi, tarixi hadisə - Azərbaycanın düşdüyü siyasi (həm də iqtisadi) vəziyyətdən qurtuluşu, həm də dünyəvi dövlətçiliyin başlanğıcı kimi tarixləşəcəkdi, əgər düzgün seçim olardısa. Xalq heç zaman səhv etməyib. Xalq seçimini etdi, böyük səs çoxluğu ilə Ulu Öndər Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu seçim bəşəri dövlət olmaq etibarilə müasir Azərbaycanın yaşam sənədi oldu.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içdi. İnauqurasiya bir inamın təsdiqi oldu: Azərbaycan bütün sınaqlardan, müharibədən də qalibiyyətlə çıxacaq, ölkə siyasi sabitlik, yüksək iqtisadi inkişaf və dönməz tərəqqi dövləti olacaq. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev andiçmə mərasimində dedi: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətləndi. Ölkədə ictimai-siyasi sabitlik yarandı, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikanın sosial-iqtisadi yüksəlişini müəyyənləşdirən amillər reallaşdırıldı. Dövlət çevrilişinin qarşısı alındı, Gəncə qiyamı, vətəndaş müharibəsi təhlükəsi sovuşdu. Respublikada ordu quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirilirdi ki, bunlar da ordunun nizami ordu kimi formalaşmasını təmin edirdi. Zabit kadrları hazırlığı genişləndirilməklə təkmilləşdirildi, proqram materialları yeni fənlərlə, yeni elmi müddəalarla əhatələyən mövzularla zənginləşdirildi. Bu proses dönməzləşdi...

Yerli özünümüdafiə taborları buraxıldıqdan sonra Azərbaycan Ordusunda vahid komandanlığın yaranması müasir ordu quruculuğunun başlanğıcı oldu. Horadiz əməliyyatı ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını yüksəltdi, qələbə ruhunu artırdı. Beləliklə, bir bazis üzərində inkişaf etdirilən ordu quruculuğu Heydər Əliyevin fenomenal düşüncəsinin fəaliyyətə tətbiqini təmin etdi. Ordu quruculuğunda daha gərəkli kompleks tədbirlərin həyata keçirilməsi üçün etibarlı zəmin yaradıldı...

Ordumuz yarana-yarana formalaşırdı, formalaşa-formalaşa da yaranırdı...

"Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır", - deyən böyük tarixi şəxsiyyət Heydər Əliyevin dövlətçilik qüdrətinin mənəvi əsası azərbaycançılıq ideologiyası idi. Milli ideologiya kimi formalaşan bu ideologiya təkcə Azərbaycanın ərazisində deyil, bütün dünyada yaşayan azərbaycanlıların məfkurəsi olmuşdu. Bu ideologiya dünya azərbaycanlılarını birləşdirirdi. Böyük tarixi şəxsiyyət bu birliyi təşkilatlandırdı. Bakıda Dünya Azərbaycanlılarının qurultayı çağırıldı. Bu ideologiya qüdrətli bir mənəvi gücə çevrildi.

Böyük tarixi şəxsiyyət deyirdi: "Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir". Bu kəlamlar indi də çağdaş dövlətçilik tezisləri kimi yaşadılmaqdadır...

Uğurlu xarici siyasət dövləti dünyaya daha yaxşı tanıdır. Beynəlxalq təşkilatlarla bərabərhüquqlu əməkdaşlıq dövlət müstəqilliyi üçün başlıca amillərdəndir. Azərbaycan da müstəqil dövlət olaraq kollektiv müqavilələrdə təmsil olunurdu, iqtisadi potensialı onu dünya dövlətlərinin nüfuz dairəsi ilə əhatələyirdi, "Böyük İpək yolu"nun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirirdi. "Əsrin müqaviləsi" Azərbaycanla dünyanın nüfuzlu dövlətləri arasında iqtisadi bağlılığın ən etibarlı vasitələrindən biri oldu. Bu iqtisadi əlaqə mahiyyət etibarilə siyasi əlaqə idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanın nüfuzunu dünya miqyasında yüksəltdi. Azərbaycan beynəlxalq təşkilatlarda təmsil olunmağa başladı. Dünya dövlətləri Azərbaycanla ikitərəfli, çoxtərəfli iqtisadi müqavilələr imzalamağa maraq göstərirdi. Bu da Azərbaycanın iqtisadi inkişafı üçün etibarlı zəmin yaradırdı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması faktını beynəlxalq təşkilatların siyasi gündəliyinə gətirmişdi, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunun mühüm prioritetlərindən birini Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni, ölkəmizin ərazi bütövlüyü təmin edilməklə həll olunması təşkil edirdi. Məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olaraq Ermənistanın işğalçılıq siyasətinə qarşı məntiqli, əsaslandırılmış fikirlər deyirdi, Ermənistanın işğalçılıq niyyətinin mahiyyətini dünya ictimaiyyətinə çatdırırdı. Bununla da beynəlxalq tədbirlərdə, görüşlərdə dünyanın əksər dövlətləri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, Ermənistanın işğalçılıq siyasətini pislədiyini bildirirdi, bu fikirləri ifadə edən qətnamələr, bəyanatlar qəbul olunurdu.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olduğu müddətdə də Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə qayğı göstərirdi, onun tarixləşməsini azərbaycançılığın mühüm tərkib hissələrindən biri bilirdi. "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi, yazıçı və şairlərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, dünya şöhrətli sənətkarlara abidələr ucaldılması, Azərbaycan mədəniyyətinin elmi əsaslarla təbliği, ... Azərbaycana böyük xidmət kimi tarixləşdi, həmin tarixləşmənin işığı bu gün də dünyanı dolaşmaqdadır...

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycana hakimiyyətə qayıdışı ilə Azərbaycanın siyasi nüfuzu yüksəldi, dünya birliyi Azərbaycana böyük ehtiramlarla yanaşdı, Azərbaycanın iqtisadi qüdrəti daha da artdı. Ulu Öndərin ordu quruculuğu istiqamətində həyata keçirdiyi tədbirlər ordunun nizami ordu kimi formalaşmasını təmin etdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da dahi şəxsiyyətin yolunu uğurla davam etdirdi. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tarixi Zəfər qazandı, 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə separatçı qüvvələr də, Ermənistan silahlı qüvvələrinin dağılmış hissələri də tərk-silah edildi, qondarma hərbi xunta rejimi öz fəaliyyətini dayandırdı.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan ilə Qazaxıstan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub





Oktyabrın 6-da Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə qonaqlar Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, Şəhidlər xiyabanında isə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi olub. Hər iki ölkənin müdafiə naziri Fəxri qarovulun önündən keçib. Nümunəvi Hərbi Orkestrin ifasında Azərbaycan və Qazaxıstan respublikalarının Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq general-polkovnik Ruslan Jaksılıkov "Şərəf kitabı"nı imzalayıb.

Geniş tərkibdə keçirilən görüşdə müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib. Nazir ölkələrimiz arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb.



Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Qazaxıstanın müdafiə naziri Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunması münasibətilə həmkarını təbrik edib, şəhid olanlara Allahdan rəhmət diləyib və onların yaxınlarına dərin hüznlə başsağlığı verib.

General-polkovnik Ruslan Jaksılıkov ölkələrimiz arasında hərbi əlaqələrin hazırkı vəziyyətindən məmnunluğunu ifadə edib.

Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sektorunda hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə keçirilən "Xəzri-2023" birgə taktiki təliminin əhəmiyyəti vurğulanıb. Keçirilən birgə taktiki təlimin hərbi qulluqçuların peşəkarlığının artırılması baxımından vacibliyi qeyd olunub.

Hər iki ölkənin Ordu quruculuğunda qarşılıqlı təcrübə mübadiləsinin xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Sonda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı" imzalanıb.

Görüşdən sonra nümayəndə heyəti Azərbaycan Ordusunun Baş Qərargahının Kibertəhlükəsizlik qovşağını, Müdafiə Nazirliyinin və Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda məntəqələrini ziyarət edərək burada ümumilikdə görülən işlərlə tanış olublar.





# "Xəzri-2023" birgə taktiki təlimi



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə Bakıda "Xəzri-2023" birgə taktiki təlimi keçirilir.

Azərbaycan Respublikası HDQ komandanı vitse-admiral Sübhan Bəkirov təlimdə müşahidəçi qismində iştirak etmək üçün ölkəmizə gələn İran İslam Respublikasının HDQ-nin Əməliyyat Komandanı 1-ci dərəcəli kapitan Məhəmməd Reza Xəzainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. HDQ-nin qərargahında keçirilən görüşdə "Xəzri-2023" təliminin əhəmiyyəti xüsusi vurğulanaraq gələcəkdə Xəzər dənizində Azərbaycan-İran HDQ-nin də birgə təlimlərinin keçirilməsinin vacibliyi diqqətə çatdırılıb və bununla bağlı ilkin razılıq əldə edilib. Görüşdə hər iki ölkənin HDQ-ləri arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

"Xəzri-2023" birgə taktiki təliminin planına uyğun olaraq hərbi gəmilərin təlim rayonlarında digər qoşun növləri ilə qarşılıqlı əlaqədə terror qruplaşmaları tərəfindən zəbt edilmiş adanın dəniz xüsusi təyinatlı və dəniz piyada bölmələri tərəfindən azad edilməsi üzrə bir sıra tapşırıqlar və digər epizodlar yerinə yetirilir. Azərbaycan və Qazaxıstan HDQ-nin hərbi qulluqçuları keçirilən məşqlərdə verilən tapşırıqların icra edilməsində yüksək peşəkarlıq nümayiş etdirirlər.

Qeyd edək ki, "Xəzri-2023" birgə taktiki təlimi oktyabrın 8-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidmətinin materialları əsasında**




# "Xəzri-2023" birgə taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib



Oktyabrın 6-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkov və digər vəzifəli şəxslər "Xəzri-2023" birgə taktiki təlimi çərçivəsində keçirilən "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.

Sonra HDQ-nin Mərkəzi Komanda Məntəqəsində nümayəndə heyətinə "Xəzri-2023" birgə taktiki təliminin planlaşdırılması, hazırlıq prosesi, eləcə də mərhələlər üzrə icra olunan fəaliyyətlər barədə məruzələr edilib. Qeyd olunub ki, İran İslam Respublikasının HDQ-nin nümayəndə heyətinin müşahidəçi qismində iştirak etdiyi təlim iki mərhələ üzrə icra edilir.

Təlimdə hər iki ölkənin hərbi qulluqçularının birgə fəaliyyətlərin icrasında yüksək peşəkarlıq nümayiş etdirmələri xüsusi vurğulanıb.



Müvafiq epizodlar üzrə icra olunan tapşırıqları Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında izləyən müdafiə nazirləri təlimin gedişatını müsbət qiymətləndiriblər.

Qeyd edək ki, Azərbaycan və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin, eləcə də hərbi qulluqçularının iştirakı ilə keçirilən "Xəzri-2023" birgə taktiki təlimi oktyabrın 8-dək davam edəcək.







## Nümunəvi xidmət

# "Hər bir əsgər döyüş tapşırığının icrasına hazır olmalıdır"

Şagirdlər müəllimlərin, əsgərlər isə komandirlərin sayəsində müfəssəl bilik və bacarıqlara yiyələnirlər. Şagirdin uğuruna müəllim, əsgərin məğrurluğuna komandiri sevinir. Müəllimin də, komandirin də başlıca məramı çalışdığı sahədə uğur əldə etməkdir. Ordumuzda xidmət edən hər bir zabitin məqsədi, məramı nümunəvi xidmət edib uğur qazanmaqdır. Bununla belə tabeliyində olan şəxsi heyətə yetərincə bilik və bacarıqlar aşılamaqdır.

Bu günlərdə hərbi hissədə həmsöhbət olduğum zabitlər əsgərlərin təlimindən, onların bilikləri necə mənimsədiklərindən söz açdılar. Bildirdilər ki, hər bir komandir şəxsi heyətə həm metodik, həm də praktiki məşğələni özünəməxsus üsullar ilə keçir. Hətta elə bacarıqlı kiçik komandirlər də var ki, onların öyrətdikləri hərbi bilik və bacarıqlar əsgərlər tərəfindən tez və mükəmməl mənimsənilir. Həmsöhbətimiz zabit Elşad Məmmədov qeyd etdi ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Xalıq Məcidov da bacarıqlı manqa komandirlərdəndir.

Çavuş Xalıq Əflatun oğlu Məcidov Lənkəran şəhərində doğulub. Böyüyəndə hərbçi olmaq qərarına gəlib. Artıq 4 ildir ki, Xalıq komandiri olduğu manqanın əsgərlərinə hərbi bilikləri böyük həvəslə öyrədir. O deyir ki, hər bir əsgərin fərdi hazırlığı önəmli məqsəd daşıyır. Əsgərlərə yüksək bilik və bacarıqları aşılayır. Sonda hər bir əsgər döyüş tapşırığının icrasına hazır olmalıdır. 27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hamının səbirsizliklə gözlədiyi əks-hücum əmrini verdi. Biz dərhal döyüşə səfərbər olduq. O zamana qədər komandiri olduğum manqanı yüksək döyüş hazırlığına gətirmişdim.



Çavuş X.Məcidov onu da bildirdi ki, əsgərlər böyük coşqu ilə düşmən üzərinə gedirdilər. Ordumuzun bölmələri addım-addım irəlilədikcə doğma torpaqlarımızın tezliklə azad olunacağına ümidləri artırdı. Belə də oldu. Torpaqlarımız azad olundu. Qəhrəman Azərbaycan əsgərinin döyüşdəki şücaəti bir daha onu göstərdi ki, xalqımız heç vaxt torpaq itkisi ilə barışmayıb və barışmayacaqdı. Xalıq və onun komandiri olduğu bölmə də müharibənin ilk günündən Zəfər gününə qədər ön cəbhədə düşmənə qarşı döyüşüb.

Çavuş Xalıq Məcidov döyüşlərdə iştirakına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub. Onun ən böyük arzusu erməni işğalı altında qalan torpaqlarımızı azad etmək idi. Bu gün o daha çox sevinir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gedən döyüş əməliyyatlarında iştirak edib. Həm də 30 ilə yaxın ayaq aça bilmədiyimiz doğma şəhər və kəndlərimizin azad edilməsində onun da əməyi olub.

Manqa komandirinin hazırda başlıca məqsədi tabeliyində olan əsgərləri yüksək döyüş hazırlığı səviyyəsinə gətirmək və onlarda bu bacarıqları daim təkmilləşdirməkdir. Tabeliyində olan əsgərlərin hər biri üzərinə düşən istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə hazırdır. Əsgərlər arasında hərbi bilikləri, praktiki çalışmaları tez və dərindən mənimsəyən əsgərlərdən Səfər Babayev, Elmar Əlixanovun adlarını qeyd etdi. Digər əsgərlərin də yüksək intizamından, verilən tapşırıqları vaxtında və dəqiq icrasından razılığını bildirdi.

Əynində hərbi mundir olan xalqımızın hər bir oğlu Vətənin müdafiəsi naminə bilik və bacarıqlarını dərindən mənimsəyərək istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda hərbi xidmətə çağırılan gənc əsgərlərin qəbulu prosesi davam edir

*Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, xidmətə yeni gələn çağırışçılar hərbi hissələrin qəbul məntəqələrində qeydiyyatdan keçir, tibb məntəqələrində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə olunur, mövsümə uyğun hərbi geyimlə və digər təminat növləri ilə tam təmin edilirlər.

Bütün hərbi hissələrdə şəxsi heyətin qidalanmasına xüsusi diqqət yetirilir, əsgər yeməkxanalarında sanitar-gigiyenik qaydalara riayət olunmaqla şəxsi heyət üçün normaya uyğun olaraq gündə üç dəfə yüksək kalorili yeməklər hazırlanır. Menyuda milli mətbəximiz üstünlük təşkil edir.

Çağırışçılara hərbi xidmətin xüsusiyyətləri, xidmət edəcəkləri hərbi hissə, günün nizam qaydaları barədə ətraflı məlumat verilir, təhlükəsizlik qaydaları çatdırılır, maarifləndirici və fərdi söhbətlər aparılmaqla, onların psixoloji xüsusiyyətləri öyrənilir.



Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq keçirilən fərdi hazırlıq məşğələlərində onlara nizamnamə və hərbi qanunvericiliyin müvafiq tələbləri, hərbi intizam qaydaları, eləcə də sıra, fiziki və atış hazırlığı üzrə çalışmaların elementləri öyrədilir.

# Tariximizin qürur duyulası səhifəsi

*19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan ordusunun tör-töküntülərinə və separatçılara ağır zərbələr vuruldu. Düşmənin qüdrətli ordumuzun qarşısında 23 saat 43 dəqiqə dayanmağa gücü çatdı. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. Ordumuzun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı hərbi qulluqçularımız böyük igidlik və qəhrəmanlıq göstərdilər. 19 sentyabrda uğurla həyata keçirilən bu tədbirlər nəticəsində Qarabağda erməni separatizminə son qoyuldu.*

*Tariximizə böyük hərflərlə yazılmış bu antiterror tədbirlərində iştirak edən əsgərlərlə görüşüb söhbət etdik.*

**Əsgər Pənah Əliyev:**

- Ordu sıralarına Kürdəmir rayonundan çağırılmışam. Artıq xidmətimin sona çatmasına sayılı günlər qalıb. Çox şükürlər olsun ki, evimizə qalib əsgər kimi qayıdıram. Bu gün hamımız qürur hissləri ilə yaşayırıq. Çünki gərgin keçən lokal xarakterli antiterror təd-



birləri zamanı erməni separatizminə son qoyduq. Biz artilleriya qurğularından düşmən hədəflərinə dəqiq atəş açmalı idik. Əsas hədəflərimiz Ağdərə və Xocalı istiqamətində idi. Antiterror tədbirləri başlayan kimi komandirin əmri ilə artilleriya qurğusunu döyüş vəziyyətinə gətirdik. Atəş açıldı. Mərmilərimiz hədəflərdən yayınmırdı. Dəqiq atəş zərbələri ilə separatçıların atəş nöqtələrini, zirehli texnikalarını məhv etdik. Təlimlərdə qazandığımız döyüş təcrübəsi düşməni məğlub etməyimizə imkan verirdi. Çox keçmədi ki, erməni separatçıları ağır itki verərək təslim oldular. Bütün dünya gördü ki, Azərbaycan Ordusu güclü və qüdtlərdir.

**Əsgər Orxan Hüseynli:**

- Antiterror tədbirləri zamanı baş tuşlayıcı idim. Hədəflər haqqında məlumatlar daxil olan kimi qısa bir zamanda onun məhv edilməsi üçün topu hədəfə istiqamətləndirirdim. Beləcə, separatçıların atəş nöqtələrini, dayaq məntəqələrini, zirehli texnikalarını bir-birinin ardınca sıradan çı-



xarırdıq. Atılan hər mərmi hədəfə düşməklə bizə uğur gətirirdi. Döyüşürdük ki, erməni işğalçılarını məğlub edək, Qarabağa sülh və əmin-amanlıq gətirək. Gərgin döyüşlərdən sonra məqsədimizə, amalımıza nail olduq. Separatçılara atdığımız mərmilər hədəfləri dəqiq vurdu. Bir sutka ərzində düşmən ağır itkilər verib ağ bayraq qaldırdı.

**Əsgər İftixar Ağalarov:**

- Zaqatala rayonunda dünyaya göz açmışam. Əmim və dayım da könüllü olaraq Birinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak ediblər. İkisi də Xocalı uğrunda vuruşmuşdu. Xatırlayıram ki, yaşım az olanda onlar iştirakçıları olduqları döyüşlərdən danışırdılar. Biz əmimin də, dayımın da söhbətlərinə maraqla qulaq asardıq. O günlərdə heç bilməzdim ki, vaxt gələcək, mən də Qarabağ uğrunda vuruşacam. Bəli, həmin vaxt gəldi. Yaşıdlarım kimi, mən də ordu sıralarına çağırıldım. Təcrübəli zabitlər elə ilk günlərdən bizə artilleriya qurğusunun sirlərini



öyrətməyə başladılar. Səmərəli keçən təlimlərdə hərbi bilik və döyüş vərdişlərinə dərindən yiyələndik. Komandirimiz həmişə deyirdi ki, hərbi bilikləri mükəmməl şəkildə öyrənin. Uğurlara gedən yol gərgin keçən təlim-məşqlərdən başlayır. Biz gənc əsgərlər də komandirin verdiyi əmr və tövsiyələri böyük fəallıqla yerinə yetirirdik. Antiterror tədbirləri zamanı bir daha gördük ki, döyüş hazırlığı yüksək olan əsgər uğur qazanır. Döyüşlərdə uğur qazandığımıza görə başımız uca, alnımız açıqdır. Bütün bunlara görə komandirlərimizə minnətdaram.

**Əsgər Həsən Mamedov:**

- Qoynunda doğulduğum Ağcabədi rayonu Qarabağa yaxın ərazidə yerləşir. Döyüşlər zamanı cəbhədə atılan topların səsini aydın eşidirdik. Ona görə də müharibənin nə demək olduğunu yaxşı bili-



rəm. Orta məktəbdə oxuyanda müəllimlərimiz bizi rayondakı Şəhidlər xiyabanına aparırdılar. Biz şagirdlər torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların məzarını ehtiramla yad edirdik. Söz verirdik ki, erməni işğalçılarından şəhidlərimizin intiqamını alacağıq. 2020-ci il sentyabrın 27-də erməni işğalçılarının təxribatı nəticəsində 44 günlük Vətən müharibəsi başlayanda orta məktəbdə oxuyurdum. Ürəyimdən keçirdi ki, kaş mən də yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edim. Mən bu arzu və istəyimə 19 sentyabr 2023-cü ildə erməni separatçılarına qarşı keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı çatdım. Bizim top heyəti də döyüşlərə cəlb olunmuşdu. Antiterror tədbirləri başlayan kimi mərmiləri düşmən hədəflərinin üzərinə dolu kimi yağdırırdıq. Daha çox separatçıların Ağdərə və Xocavənd rayonları istiqamətindəki dayaq məntəqələrini və atəş nöqtələrini vururduq. Atəş zərbələri dəqiq olduğuna görə düşmən ağır itkilər verib geri çəkilirdi.

**Əsgər Rəvan Əsədov:**

- Tovuz rayonunun Düz Cırdaxan kəndində anadan olmuşam. Rayonumuzun igid, cəsur oğulları həm Birinci, həm də İkinci Qarabağ müharibələrində torpaqlarımızın azadlığı uğrunda döyüşüblər. "Tovuz döyüşləri" kimi tarixə düşən döyüşlərdə də erməni işğalçılarına böyük zərbələr endirildi. Düşmən ordumuzun hərbi qul-



luqçularının igidliyi və qəhrəmanlığı qarşısında aciz qalaraq geri çəkildi. Kiçik yaşlarımızdan zəfər ovqatı ilə böyümüşük. Özümüzdən böyüklərdən igidliyi, qəhrəmanlığı öyrənmişik. Antiterror tədbirlərində iştirak etdiyim üçün qürur duyuram. Bir vaxtlar Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etməyi arzulamışdım. Şükürlər olsun ki, xidmətimin son günlərində bu mənə qismət oldu. Qarabağda separatçılara qarşı həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatmasında mənim də əməyim oldu. Düşmən ordumuzun güclü zərbələri qarşısında çox duruş gətirməyərək ağ bayraq qaldırdı, silahı yerə qoyaraq mövqelərindən çıxıb təslim oldu. İllərdən bəri xalqımıza düşmən kəsilmiş erməni faşizminə, erməni separatizminə son qoyuldu.

**Əsgər Mahsun Cəfərov:**

- Valideynlərim Cəbrayıl rayonunun Horovlu kəndindəndir. Mən bu kəndi yalnız şəkillərdə görmüşəm. Erməni işğalçıları Horovlunu 1993-cü ilin yayında ələ keçirmişdilər. Dayılarım Altay və Orxan Behbudovlar o vaxtlar doğma ocaqlarımızın azadlığı uğrunda cəsarətlə vuruşmuşdular. Hər ikisi müharibə veteranıdır. Atam kəndi, evlərini tez-tez xatırlayırdı. Daim doğma ocaqlarının həsrətini çəkirdi.



Ürəyindən keçirdi ki, tezliklə kəndləri azad olunsun, evlərinə qayıtsın. Mən də o yerlərə getməyi arzulayırdım. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun cəsur hərbi qulluqçuları, başqa yaşayış məntəqələri kimi, Horovlu kəndini də işğaldan azad etdilər. Mən də onların şərəfli döyüş yollarını davam etdirdim. Ordumuzun Qarabağda həyata keçirdiyi antiterror tədbirlərinin iştirakçısı oldum. Topçu kimi üzərimə düşən döyüş tapşırıqlarını layiqincə yerinə yetirdim.

Azərbaycan Ordusunun 19 sentyabr 2023-cü ildə Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri qəhrəmanlıq tariximizdə əbədi qalacaq. Həmişə qürur duyulası səhifə kimi xatırlanacaq. Xalqımız bu döyüşlər zamanı hərbi qulluqçularımızın göstərdiyi igidlik və qəhrəmanlıqlardan həmişə nümunə götürəcək, onlarla fəxr edəcək.

**Əsgər Əli Qasımov:**

- Üç il əvvəl hər birimiz qə-



ləbə sevincini yaşadıq. Rəşadətli ordumuz hər gün kənd-kənd, rayon-rayon torpaqlarımızı işğaldan azad edərək irəliləyirdi. Otuz ilə yaxın düşmən işğalında olan torpaqlarımızda güclü ordumuz sayəsində şanlı Azərbaycan bayrağı dalğalandı. Düşmən döyüş mövqelərini, silah-sursatını ataraq qaçmağa məcbur oldu. Ancaq təəssüflər olsun ki, bu günə kimi bəzi yerlərdə qanunsuz erməni birləşmələrinin tör-töküntüləri hələ də qalmaqda idi. Hərbi xidmətə başladığım gündən onların tez-tez atəşkəsi pozduğunun, özlərinə yeni döyüş mövqeləri yaratmağa çalışdıqlarının şahidi olmuşam. Bütün bu təxribatların qarşısını almaq məqsədilə sentyabrın 19-da ordumuz antiterror tədbirləri görməyə başladı. Bizim bölmə də antiterror tədbirlərində uğurla iştirak etdi. Qısa zamanda qeyri-qanuni erməni birləşmələrinin Qarabağdakı döyüş mövqeləri dağıdıldı, texnikaları sıradan çıxarıldı.

**Əsgər İlham Əmirov:**

- Hələ hərbi xidmətə başlamadığım zamanlardan Vətən müharibəsində iştirak edən dostlarımın döyüş yolunu maraqla dinləyirdim. Onlar öyrəndiklərini mənimlə bölüşür, hərbi xidmətə olan marağımı daha da artırırdılar. Xidmətə başladığım gündən təlimlərdə böyük həvəslə iştirak edir, təcrübəli komandirlərimizin bizə öyrətdiklərini məsuliyyətlə öyrə-



nirdim. Əsgər yoldaşlarım kimi, mən də istənilən tapşırığın öhdəsindən gəlməyə hazır idim. Müddətli həqiqi hərbi xidmətimin bitməsinin son günlərində bizim bölmə də qeyri-qanuni erməni birləşmələrinə qarşı antiterror tədbirlərinə cəlb olundu. 24 saatdan az bir vaxtda qarşıya qoyulan tapşırıq uğurla icra olundu. Sevinirəm ki, mən də antiterror tədbirlərində iştirak etdim.

(Ardı 5-ci səhifədə)

## Hərbi Prokurorluq və DTX Ulu Öndərin 100 illik yubileyi münasibətilə tədbir keçirib



Respublika Hərbi Prokurorluğu Dövlət Təhlükəsizliyi Xidməti (DTX) ilə birlikdə Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə tədbir keçirib.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin "N" hərbi hissəsində keçirilən tədbirdən əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

General-mayor Rövşən Muxtarov tədbiri açıq elan etdikdən sonra mərasimdə baş ədliyyə müşaviri Firad Əliyevə, ədliyyə polkovniki Emil Kərimova və ədliyyə müşaviri Samir Əzimzadəyə söz verilib.



Çıxış edənlər istiqlal yolumuzu və firavan istiqbalımızı işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş uğurlardan, bu uğurların əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, uğurlu antiterror tədbirlərindən, prokurorluq orqanlarının, o cümlədən Hərbi Prokurorluğun Dövlət Təhlükəsizliyi Xidməti ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib.

## Belarusda Azərbaycanın ilk hərbi təyyarəçisi anılıb

*Belarusda azərbaycanlı, Birinci Dünya müharibəsinin qəhrəmanı, "İlya Muromets-16" bombardmançı təyyarəsinin artilleriya zabiti Fərrux Ağa Qayıbov anılıb.*

AZƏRTAC xəbər verir ki, oktyabrın 2-də Azərbaycanın Belarusdakı səfiri Ülvi Baxşəliyev, səfirliyin əməkdaşları və



hərbi attaşelik aparatının nümayəndələri Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux Ağa Qayıbovun anadan olmasının ildönümü ilə əlaqədar olaraq, onun Belarusun Smorqonskiy rayonunda yerləşən məzarını və büstünü, eləcə də Birinci Dünya müharibəsində onun iştirakı ilə qəzaya uğrayan "İlya Muromeç-16" hava gəmisinin düşdüyü yerdə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Anım tədbirində çıxış edən səfir Ü.Baxşəliyev bildirib ki, Fərrux ağa Qayıbov tarixə



təkcə qəhrəman kimi deyil, həm də Azərbaycanın ilk hərbi təyyarəçisi kimi düşüb. Onun təyyarəsi 105 il əvvəl, Birinci Dünya müharibəsi dövründə Kamenitsa kəndi ərazisində partlayıb. Səfir vurğulayıb ki, dünya müharibələri zamanı azərbaycanlı qəhrəmanlar Belarus ərazisində gedən döyüşlərdə böyük şücaət göstəriblər.

"İlya Muromets-16" təyyarəsinin 4 alman qırıcısı ilə döyüşdə həlak olmuş ekipaj üzvləri ölümlərindən sonra 4-cü dərəcəli Müqəddəs Georgi ordeni ilə təltif edilib.

## Tariximizin qürur duyulası səhifəsi

(Əvvəli 4-cü səhifədə)

**Əsgər Kənan Qasımov:**

- 2020-ci ildə bütün dünya 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı şanlı qələbənin şahidi oldu. Düşmən döyüş meydanında darmadağın edildi. Qarşı tərəf kapitulyasiya aktını imzalamağa məcbur oldu. Ancaq 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu və bu birləşmələrin Qarabağ iqtisadi rayonunda mütəmadi olaraq təxribatlar törətməsinin şahidi olurduq. İşğaldan azad edilən ərazilərimizə qayıdan dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ordumuz tərəfindən sentyabrın 19-da lokal xarakterli antiterror tədbirləri başladıldı. Bizim hərbi hissəmiz də bu tədbirlərə cəlb edildi. Antiterror tədbirlərinin başladığı ilk saatlardan artıq qarşı tərəfin uzun müddətli atəş nöqtələri və hərbi obyektləri dəqiq atəşlərlə məhv edildi. Qarşıya qoyulan bütün tapşırıqlar bölməmiz tərəfindən yüksək peşəkarlıqla icra olundu.



**Əsgər Rəvan Zohorov:**

- Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayan gündən böyükdən-kiçiyə qədər hər kəs birlik, həmrəylik nümunəsi sərgilədi. Həmin vaxtlarda orta məktəbdə təhsil alırdım. Müəllimlərimiz sevinclə, qürurla ordumuzun qazandığı zəfərlərdən danışırdılar. Həmin günlərdə əsgər olmadığım üçün təəssüf hissi keçirirdim. İllər ötdü, artıq mən də güclü Azərbaycan Ordusunun əsgəriyəm. Bir əsgər olaraq Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror



tədbirlərinin iştirakçısı olduğum üçün qürur hissi keçirirəm. Artıq Qarabağımız terrorçulardan təmizlənib.

**Əsgər Xizri Musayev:**

- Xidmətdə olduğum ilk gündən Qarabağ bölgəsində hələ də atəşkəs rejiminin ermənilər tərəfindən tez-tez pozulduğu xəbərlərini eşidirdim. Azad olunan torpaqlarımızda aparılan bərpa-quruculuq işlərinə cəlb olunan mülki insanlara atəş açılması eşitmək bizləri məyus edirdi. 10 noyabr Bəyanatının müddəalarına əsasən Qarabağdan erməni silahlı birləşmələrinin çıxarılması tələb olunsa da, buna əməl olunmurdu. Təxribatların mütəmadi hal alması antiterror tədbirlərinin keçirilməsinin vacibliyini ön plana çıxarırdı. Sentyabrın 19-dan 20-dək ordumuz Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrini zərərsizləşdirmək üçün hərəkətə başladı. Verilən tapşırığı qısa bir zamanda böyük ruh yüksəkliyi ilə icra etdik.

**Əsgər Ələmdar Ağayev:**

- Azərbaycan Ordusu güclü ordudur. Bunu Aprel döyüşlərində, Günnüt zəfərində, Tovuz döyüşlərində, Vətən müharibəsində, "Qisas" əməliyyatında döyüş meydanında sübut edib. Sentyabrın 19-da Azərbayca-





nın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tör-töküntülərinə qarşı antiterror tədbirləri həyata keçirildi. Tətbiq olunan cəza tədbirləri nəticəsində düşmənin atəş nöqtələri məhv edildi, mühüm yüksəklikləri işğaldan azad olundu, çoxlu sayda canlı qüvvəsi, silah və texnikası zərərsizləşdirildi. Komandirlərimizin peşəkarlığı, əsgərlərimizin cəsarəti ilə 24 saatdan az bir vaxtda bütün qeyri-qanuni silahlı birləşmələrin tərk-silah olunmasına nail olduq. Bu gün Qarabağın hər bir yerində şanlı üçrəngli bayrağımız dalğalanır.

**Baş leytenant Oruc MUSTAFAYEV,**
**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri, inzibati ərazi bölgüsü, iqtisadi inkişafı

**Suallar:**

**1. Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü.**

**2. Dövlətimizin iqtisadi inkişaf strategiyası.**

### Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü

Hər bir xalqın, millətin xoşbəxtliyi, ilk növbədə, onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Siyasi sistemin fəaliyyətinin formalaşmasına əhalinin siyasi mədəniyyətinin xüsusiyyətləri mühüm təsir göstərir. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarının birində dövlət başçısı cənab İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən, siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir".

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi olaraq qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Unitar dövlət (latın dilində "unus" - "vahid", "tək" deməkdir) - sadə, bəsit, vahid dövlətdir ki, onun tərkibi bir qayda olaraq inzibati-ərazi vahidlərindən (vilayət, mahal, rayon, departament və s.) ibarətdir.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycan Respublikasında müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunvericilik, icra və məhkəmə hakimiyyəti. Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən Azərbaycan Respublikasının Prezidenti, Məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir. Bu hakimiyyət orqanlarından hər birinin fəaliyyəti Konstitusiya və qanunvericilik aktları ilə tənzimlənir. Azərbaycanın siyasi sistemində yerli özünü idarəetmə orqanları olan bələdiyyələr də mühüm yer tutur. Bütün müasir siyasi sistemlər kimi Azərbaycanın siyasi sisteminə də çoxpartiyalılıq, plüralizm xasdır.

**Azərbaycan Respublikasının dövlət rəmzləri**

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Konstitusiyasının 23-cü maddəsində göstərildiyi kimi, Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

**Dövlət bayrağı** - Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. Üçrəngli bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilərək Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir.

**Dövlət gerbi** - Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmış, lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində gerb qəbul edilməmişdir. Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyi rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

**Dövlət himni** - 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini də qəbul etməyə imkan vermədi. 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.

Ərazi quruluşu və inzibati ərazi bölgüsü - Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanun Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün, habelə ərazi vahidlərinin qeydiyyatının, sərhədlərinin müəyyən edilməsinin və dəyişdirilməsinin, adlandırılmasının və ya onların adlarının dəyişdirilməsinin, hüquqi əsaslarını, eləcə də ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı digər məsələlərin tənzimlənməsində dövlət orqanlarının və bələdiyyələrin səlahiyyətlərini müəyyən edir.

Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzi olan - Bakı şəhəridir. Bakı şəhəri Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində yerləşir, onun ərazisi 2200 kv km, əhalisinin sayı 2 milyona yaxındır.

### Dövlətimizin iqtisadi inkişaf strategiyası

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələri həyata keçirə bilərdik. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır. Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrün siyasi və iqtisadi aspektlərinin öyrənilməsi hər zaman öz aktuallığını saxlayır. Bu, gələcək inkişafımızın əsas istiqamətlərini müəyyən etmək və bir daha dəqiqləşdirmək baxımından zəruridir. Ulu Öndərin "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev milli iqtisadiyyatımızın inkişafına dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi hər zaman böyük önəm vermişdir.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildən - müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. 1994-cü ildə isə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldilmişdir.

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında inkişafına konstitusion təminatın verilməsi, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkəmizin beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşulması, dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi ulu öndər Heydər Əliyevin fəaliyyəti, onun bu sahədə atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli fərmanı ilə hökumətin iqtisadi blokuna ilk tapşırıqlarını vermişdir. Ölkəmizin sosial-iqtisadi həyatının ən aktual problemlərini özündə əks etdirən bu fərmanı dövlət başçısının iqtisadi komandaya ilk tapşırıqlarının məcmusu kimi qiymətləndirmək olar.

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan həyata keçirilən hər hansı bir tədbir ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüş yarada bilməz. 2003-2021-ci illər ərzində dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi xüsusi olaraq qeyd edilməlidir.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Eyni zamanda, erməni işğalından azad edilmiş ərazilərin bərpa edilməsi və bu da iqtisadi fəallığın yüksəlməsi ilə müşayiət olunur. İşğaldan azad edilmiş ərazilərdə "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, Füzuli, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının, eyni zamanda həm iqtisadi, həm siyasi, həm də tarixi baxımdan çox vacib olan "Zəngəzur dəhlizi"nin açılması nəzərdə tutulmuşdur. Dövlət investisiyaları vasitəsilə infrastruktur obyektlərimiz modernləşdirilir. Xidmət, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm, emal sektoru qeyri-neft sektorunun potensial sahələri kimi inkişaf etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Vətən müharibəsi xatirələrdə



Xatirə - olmuşlar, yaşanmışlar tarixidirmi? - olmuş, yaşanılmış hadisələr xalqla, dövlətlə, dövlətçiliklə bağlıdırsa, mahiyyəti dünyəvi proseslərə təsir edibsə, tarixi hadisədir.

2020-ci ilin 27 sentyabr günü tarixi gündür, həmin gün tarixi hadisə yaşanıldı - Vətən müharibəsi başladı. 27 sentyabr ədalətsizlik müharibəsinə qarşı Azərbaycanın başladığı ədalətli müharibənin ilk günü oldu. Ermənistanın işğal müddətində yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi "Ohanyan səddi" ilk dəfə həmin gün dağıdıldı, ermənilər ilk dəfə həmin gün sarsıldı, işğalın sütunları həmin gün titrədi.

O tarixi gündən 3 il keçir. Neçə 3 illər, 30 illər,... keçəcək, Azərbaycanın ədalətli müharibəsi (həm də müharibənin ilk günü) yaddaşlarda da, tarixdə də yaşadılacaq...

**Polkovnik-leytenant Nofəl Şahbazov:**

- Birinci Qarabağ müharibəsində əsgər kimi, 2016-cı ilin Aprel döyüşlərində zabit kimi Talış, Suqovuşan istiqamətlərində döyüşmüşəm. Vətən müharibəsinin də iştirakçısı olmuşam. Hər üç döyüşün təəssüratlarını xatirələrimdə ömrüm boyu yaşadacam.

Vətən müharibəsi başlayanda bizim hərbi hissə də döyüşlərə cəlb olunmuşdu. Döyüş əmrinin icrası hər əsgərin döyüş əzmini, qələbə ruhunu kükrətmişdi. Sentyabrın 27-si döyüşlərin ilk günü oldu. Biz döyüşlərə Qubadlı istiqamətindən başladıq. Döyüşçülərimiz adi payız gününü adilikdən fərqləndirmək, Vətənə ad olan gün kimi tarixləşdirmək üçün döyüşürdülər...

Düşmən ciddi müqavimət göstərirdi. Bu müqaviməti qırmaq üçün gərgin döyüşlər gedirdi. Əvvəlki gün - ayın 27-də düşmən hücum edəndə döyüşdə şəhidlərimizin olduğunu biz də eşitmişdik. Əsgərlərdən birinin çağırışı əsgərlərin hamısını döyüş meydanına daha qətiyyətlə çıxartdı: Şəhidlərimizin ruhu da sıramızdadır! Döyüşü qələbə ilə başa vuracağıq!

2020-ci ilin 27 sentyabrı yaddaşımda "Vətən müharibəsi başladı!" - çağırışı ilə, bir də əsgərlərimizin "Döyüşə gedirik!" - coşqusu ilə qalıb...

**Mayor Zaur Əliyev:**

- Vətən müharibəsi ilə torpaqlarımız işğaldan azad edildi. Bu müharibə hamımızın ömrümüzdədir. Hərbçi taleyimdən razıyam ki, mən də bu müqəddəs müharibənin iştirakçısı oldum. Universitetdə təhsil alanda gələcək taleyimlə bağlı çoxlu niyyətlərim olurdu. Sonuncu kursda oxuyanda televiziyadan maraqlı bir veriliş izləyirdim. Bir Ana doğma yurdundan uzaqlarda qəhərlə yaşanılan ayların-illərin ağrılarından danışırdı. Ananın dedikləri mənim də düşüncələrimi təlatümə gətirmişdi. Haldan-hala düşdüyümü görən tələbə yoldaşlarımın sorğusuna cavab olaraq demişdim ki, mən hərbçi olacam.

Müddətli həqiqi hərbi xidmətdən sonra "Ehtiyat zabit hazırlığı kursu"nu bitirdim. "Leytenant" rütbəsi ilə qoşunlarda xidmətə başladım.

Mən də digər hərbi qul-



luqçular kimi, xalq kimi torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın döyüş əmrini gözləyirdim. Əkshücum əmri 2020-ci il sentyabrın 27-də verildi. Hərbi hissəmiz döyüşlərə Murovdağ istiqamətindən cəlb olundu. Sentyabrın 27-də aldığımız "Döyüşlər başladı!" məlumatı da, hərbi hissəmizə verilən döyüş əmri də günümüzün tarixi oldu. Təkcə bizim yox, xalqın tarixi oldu. Bu günü döyüşləriylə, qələbələriylə ordumuz tarixləşdirəcəkdi. Biz tarixləşdirəcəkdik. Döyüşdük. Döyüşə-döyüşə Şuşaya, Şuşadan Zəfərə yaxınlaşdıq. Mövqe qələbələrimiz döyüşçülərimizin döyüş əzmini də yüksəldirdi, qələbə ruhunu da. Döyüş bir qədər səngiyəndə döyüçülərdən biri demişdi:

- Komandir, əmr əmrdir. İmkan olarsa, məni Şuşa istiqamətində gedən döyüşlərə göndərin. Babam Birinci Qarabağ müharibəsində Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Onun Şuşada yarımçıq qalan ömrünün davamı olum. Əsgərin niyyəti məni də, digər zabitləri də qürurlandırdı, duyğulandırdı. Hamımız Azərbaycan əsgərinin mənəvi kamilliyinə görə qürurlandıq, şəhid olmuş babasının ömrünə bu səviyyədə sevgiyə görə duyğulandıq. O əsgər sonacan bizimlə bir sırada döyüşdü, mərdliklə döyüşdü. Şuşanın işğaldan azad edildiyini eşidəndə bir tərəfə çəkilib ağladığını da sezdik. Qələbəyə görə sevinən əsgər şəhid babasının ruhunun sıxıntılardan xilas olmasına da sevinirdi; göz yaşları sevincin yaşlarıydı...

Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Həmin gün hamımız sentyabrın 27-ni xatırladıq. Sentyabrın 27-sini noyabrın 8-nin başlanğıcı bildik, Zəfəri - Şuşa qələbəsinin davamı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu döyüşlər haqqında qürurla belə dedi: "Həmin günlərdə Azərbaycan əsgəri Şuşaya doğru irəliləyirdi. Sıx meşələrlə, dağlarla irəliləyən ordumuz bu yolda qəhrəmanlıq nümunələri göstərdi. Düşmənin heç vaxt ağlına belə gəlməzdi ki, Azərbaycan əsgəri dağlardan, dərələrdən, sıldırım qayalardan dırmaşıb keçərək Şuşaya çata bilər. Lakin ordumuz mümkünsüz görünən bu işləri reallığa çevirdi". Sentyabrın 27-si bu kəlamların da başlanğıcı oldu...

Vətən müharibəsinin ilk günü yaddaşımda döyüş əzmi kimi, qələbə ruhu kimi qalıb...

27 sentyabr tarixdir. Bu tarix işğalı sonlandıran tarixi bir Zəfərin başlanğıcıdır. 2020-ci il sentyabrın 27-si günü unudulmayacaq, heç vaxt unutmayacağıq!..

**Əsgər Murad Cavadov:**

- Onda orta məktəbdə oxuyurdum. Vətən müharibəsinin başladığı xəbərini səhərisi gün - ayın 28-də eşitdim. Digər sinif yoldaşlarım kimi, mən də döyüşlərə getmək istədim. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbəsinə müraciət etdik. Yaşımızın azlığına, məktəbli olduğumuza görə apармadılar. Həmin gün məktəbdə də, küçələrdə də ancaq döyüşlərdən danışırdılar.

Eşitdiklərimizi biz də maraqla dinləyirdik. Tele-



viziyadan verilişləri, xəbərləri də böyük maraqla izləyirdik. Cəbhə xəbərləri hamımızın düşüncələrindəydi. Ordu hissələrimizin mövqe qələbələri qəlbimizi dağa döndərirdi.

Əsgərlərimizin düşmən səngərlərini dağıtması, mövqe qələbələri qazanması müharibənin ilk günlərində hamı kimi, bizim də qələbəyə inamımızı artırmışdı. İnanırdıq ki, ordumuz qalib gələcək, torpaqlarımız işğaldan azad ediləcək.

Müharibənin ilk günündə də şəhidlərimiz oldu. Onlar ordumuzun qələbəsi naminə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olmuşdular. Onların hər birini özümüzə örnək bildik.

Vətən müharibəsi ordumuzun tarixi Zəfəri ilə başa çatdı. Nə müharibəni, nə də döyüşləri heç birimiz unutmayacağıq. Vətən müharibəsinin ilk gününü necə yaşadığımızı da yaddan çıxarmayacağıq...

**Əsgər Malik Atakişiyev:**

- Sentyabrın 27-si yaddaşımda həm Vətən müharibəsinin başladığı gün



kimi qalıb, həm də ordu hissələrimizin düşmənin səddlərini dağıtdığı gün kimi. Həmin gün həm ordumuzun ilk qələbələr qazandığı gün kimi xatırlanacaq, həm də döyüşlərdə şəhid olanların sonuncu gülləsini atdığı gün kimi...

Biz də hamı kimi müharibəni televiziyadan izləyirdik. Xəbərlərə baxırdıq, verilişlər izləyirdik. Döyüşlər haqqında məlumatlar alırdıq. Ordu hissələrimizin qazandığı mövqe qələbələrinə sevinirdik, şəhidlərimizə görə qəhərlənirdik.

Nurəddin Məstəliyev Qaradağ rayonunun Qızıldaş qəsəbəsində dünyaya göz açmışdı. İdmançı idi, respublika çempionu olmuşdu. 20 yaşı vardı. 2020-ci il sentyabrın 27-də Ermənistan ordu hissələrinin torpaqlarımıza hücumunun qarşısını alanların sırasında Nurəddin Məstəliyev də vardı. Həmin döyüşlərdə o da mərdliklə vuruşdu, şəhid oldu. Müharibənin ilk günü - sentyabrın 27-də. Bunları mən müharibənin səhərisi gün atamdan eşitmişdim.

2021-ci il sentyabrın 27-də müəllimimiz bizdən soruşdu ki, dərsə başlamamış nədən danışaq. Mən təklif etdim ki, Nurəddindən, ötən il sentyabrın 27-də şəhid olan döyüşçülərimizdən.

Müəllimimizin təklifi ilə Nurəddin haqqında bildiklərimi danışdım. Nurəddinin timsalında bütün şəhidlərimizi andıq. Sonra müəllimimiz Vətən müharibəsinin başlamasının ilk günündən, müharibədən, döyüşlərdən, qazanılan tarixi Zəfərdən danışdı. Onu da dedi ki, Vətən müharibəsinin başladığı gün də tarixdi. Bu günü biz də unutmayacağıq, siz də unutmayacaqsınız, sizdən sonra təhsil alacaq şagirdlər də unutmayacaqlar. Müharibənin ilk günü yaddaşımda məktəbimizlə əlaqəli qalıb, bu xəbəri ilk dəfə məktəbimizdə eşitdim, bir il sonra bu duyğuları da məktəbimizdə yaşamışam...

**Kapitan**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Hərbi Hava Qüvvələri İraqın şimalında terrorçulara məxsus 22 obyekti vurub



İraqın şimalındakı Metina, Hakurk, Qara, Qəndil və Asos bölgələrində terrorçu qruplara qarşı keçirilən hava əməliyyatı zamanı 22 obyekt məhv edilib, çoxlu sayda terrorçu zərərsizləşdirilib.

Anadolu agentliyi xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, BMT Nizamnaməsinin 51-ci maddəsindən irəli gələn özünümüdafiə hüququna uyğun olaraq İraqın şimalındakı Metina, Hakurk, Qara, Qəndil və Asos bölgələrində terror təşkilatlarına qarşı hava əməliyyatı keçirilib. Əməliyyatın məqsədi mülki əhalini və sərhəd təhlükəsizliyini təhdid edən PKK-KSK terror qruplaşmalarını və digər terror ünsürlərini zərərsizləşdirmək olub.

"Hava hücumları nəticəsində separatçı terror təşkilatının istifadə etdiyi və bu təşkilatların yüksək rütbəli üzvlərinin gizləndiyi iddia edilən mağara, sığınacaq, bunker, sığınacaq və anbarlardan ibarət 22 obyekt məhv edilib. Həyata keçirilən əməliyyatlar zamanı çoxlu sayda terrorçu zərərsizləşdirilib. Bu coğrafiyada bir dənə də olsun terrorçu qalmayana qədər terrorla mübarizə davam edəcək", - məlumatda qeyd edilib.

## Polşa ordusunda hərbçilərin sayı 186 minə çatdırılıb



Polşa silahlı qüvvələrdə qulluq edən hərbçilərin sayını son səkkiz ildə təxminən iki dəfə artıraraq 186 min nəfərə çatdırıb.

Polşanın müdafiə naziri Mariuş Blaşak bu barədə özünün sosial şəbəkə hesabında yazıb.

"Artıq bizim əlində silah olan 186 minlik ordumuz var. Polşa tədricən Avropanın ən güclü quru qoşunlarını formalaşdırır", - deyə nazir bildirib.

Polşa hökumətinin nümayəndəsi Petr Müllerin sözlərinə görə, 2015-ci ildə silahlı qüvvələrdə 95 min hərbçi xidmət edirdi. Bir müddət öncə isə Polşa Müdafiə Nazirliyi 2035-ci ilə qədər hərbçilərin sayının 300 min nəfərədək artırılacağını bəyan etmişdi.

## Fransa bu həftə qoşunlarını Nigerdən çıxarmağa başlayacaq



Nigerdə dislokasiya olunan fransalı hərbçilər həftə ərzində ölkəni tərk etməyə başlayacaq.

France-Presse agentliyi bu barədə Fransa silahlı qüvvələrinin baş qərargahına istinadla məlumat yayıb. Əməliyyatın Niger tərəfi ilə koordinasiya edilmiş şəkildə həyata keçiriləcəyi bildirilir.

## ABŞ İspaniyaya 2,8 milyard dollar dəyərində "Patriot" sistemlərinin satışını təsdiqləyib



ABŞ İspaniyaya ümumi məbləği təxminən 2,8 milyard dollar dəyərində "Patriot Configuration-3+" hava hücumundan müdafiə sistemi və avadanlıqlarının satışını təsdiqləyib.

Bu barədə ABŞ-ın Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, İspaniya ilə mövcud müqavilələrin icrası üçün ABŞ Dövlət Departamentinin milli qanunvericiliyə uyğun olaraq verdiyi icazə alınıb. Amerika administrasiyası qərarları barədə artıq ABŞ Konqresini xəbərdar edib. Yeni silah müqaviləsinin həyata keçirilməsinə yekun razılıq verməli olan ABŞ qanunverici orqanının indi onu öyrənmək üçün 30 gün vaxtı var.

Nazirlik əminliyini ifadə edib ki, saziş ABŞ Silahlı Qüvvələrinin döyüş hazırlığına mənfi təsir göstərməyəcək.

**AZƏRTAC-ın materialları əsasında**

## Tarix yazan oğullar

# Vətənə məhəbbətin zirvəsi

Vətəni sevmək də, qorumaq da mənəvi zənginlikdir.

Şəhidlik Vətən, torpaq, millət sevgisinə görə son nəfəsdir...

Şəhidlər - dünənimizin qəhrəmanlıq simvolu, bu günümüzün qeyrət salnaməsi, sabahımızın əbədi örnək təmsilçiləridir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanlarıdır". Biz bu gün qalib xalq kimi ikiqat sevincli və qürurlu olmaqla yanaşı, Vətən torpağının hər bir qarışını canından əziz bilənlərə borcluyuq. Vətənimizin parlaq gələcəyini, aydın səmalarını borclu olduğumuz vətənpərvərlərdən biri də leytenant Mirzağa Məmmədbağır oğlu Əliyevdir.

Azərbaycan Ordusunun leytenantı Mirzağa Əliyev 1996-cı il iyunun 15-də Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub. 2002-2011-ci illərdə qəsəbədəki Rafiq Gözəlov adına 1 nömrəli tam orta məktəbdə, 2011-2014-cü illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2014-2018-ci illərdə hərbi təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) davam etdirib. Gənc zabit kimi "N" hərbi hissəsində taqım komandiri vəzifəsində xidmətə başlayıb.

Leytenant Mirzağa Əliyev 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində Füzuli və Cəbrayılın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 7-də Füzuli rayonunun Şükürbəyli kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Neftçala rayonunun Xıllı qəsəbəsində dəfn edilib.

Leytenant Mirzağa Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin ailəsi ilə görüşüb qəhrəmanın xidmət və döyüş yoluna işıq tutmazdan öncə Vətənə sədaqət və sevgisi uğrunda şəhid olan qəhrəmanın məzarını ziyarət etdim. Əzəmətlə



dalğalanan müqəddəs bayrağımızın kölgəsində gül-çiçəyə bürünən sıraya düzülmüş şəhid məzarları... Baş daşlarından boylanan nurlu simalar, qürurlu, gülümsər baxışlar. Bu ziyarət vəfa borcuydu, vətəndaşlıq borcuydu.

Şəhidin ailə üzvləri "Vətənini sevirdi, peşəsinin vurğunu idi. Torpaqlarımızın azadlığı uğrunda müqəddəsliyə ucaldı. Ucaldığı şəhidlik mərtəbəsi Tanrı dərgahında peyğəmbərlikdən sonra ən yüksək zirvədir", - dedilər.

Atası Məmmədbağır oğlu haqqında qürurla danışdı:

- Xalqımız vətənpərvər xalqdır. Tarixin bütün dönəmlərində qəhrəman oğullar vətənsevərliyi, mərdliyi, qorxmazlığı ilə gələcək nəsillərə örnək olub. Bu indi də davam etməkdədir. Özünü bu dövlətin həqiqi vətəndaşı bilən hər bir gənc şəhidlikdən çəkinmir. Mənim oğlum da belə oğullardan biri oldu. Mirzağa indi təkcə mənim deyil, bütün Azərbaycan xalqının övladıdır. Mən belə bir vətənpərvər oğul böyütdüyüm üçün fəxr edirəm. Oğul itkisi ağır olsa da, şəhid atası olmaq bu ağrını qürura çevirir.

Dövlət başçısı çıxışlarının birində dedi ki, "Vətən müharibəsi bizim şanlı tariximizdir". Bəli, bu şanlı tarixi bizə yaşadan qüdrətli ordumuz Müzəffər Ali Baş Komandanımızın sərkərdəliyi ilə 44 gün ərzində 30 ilə yaxın davam edən işğala son qoydu.

Şəhidin atası bildirdi ki, oğlu ilə telefon əlaqəsi saxlayarkən o, böyük ruh yüksəkliyi ilə hər şeyin qaydasında olduğundan, tezliklə ordumuzun düşmən işğalında olan bütün torpaqlarımızı azad edəcəyindən danışardı. Oğlum iyunun 15-də Qurtuluş Günündə dünyaya göz açmışdı, o günün haqqını da layiqincə verdi.

Mirzağanın şəxsi əşyalarına həssaslıqla yanaşıb şəkillərini oxşayan Səadət ana şəhid övladından danışdı: "Hələ kiçik yaşlarından övladlarımıza Vətənin, torpağın müqəddəs olduğunu öyrətdik. Mirzağanın uşaqlıqdan hərb sənətinə böyük marağı vardı. Tarixi torpaqlarımızın işğalı, vətəndaşlarımızın işgəncələrə məruz qalması, yurd-yuvalarından didərgin salınması və daxilindəki qisas hissi onu hərb sənətinə çəkirdi. Ordu sıralarında qulluq edən yaxınlarımızın söhbətlərinə diqqətlə qulaq asardı. Zaman keçdikcə bu marağı müqayisəolunmaz bir sevgiyə çevrildi. Mirzağa çox inadkar idi. Məqsədinə çatmaq üçün əziyyətə qatlaşmaqdan çəkinməzdi. Riyaziyyatı başqa fənlərdən yaxşı bilirdi. Hərbçi yoldaşları deyirdilər ki, onun verdiyi koordinatların biri də yanlış olmayıb. Yadıma gəlir, təlimlərdən birini uğurla başa vurduqdan sonra zəng etmişdi. Elə sevincli idi ki. "Ana, bəyəndilər, atışım tam dəqiq idi", - dedi. Mirzağa çox məsuliyyətli, çalışqan, qorxubilməz idi. Deyirdi ki, qarşıda bizi çox böyük sınaqlar gözləyir. Buna görə də daim öz üzərində işləyir, biliklərini daha da təkmilləşdirirdi. Bilmədiklərini öyrənirdi.

Hərbi təhsilini başa vuranda buraxılış mərasimində iştirak etmişdik. O gün Mirzağa tam anlamı ilə xəyallarını reallığa çevirdiyinin qürurunu yaşayırdı. Xidmətə başladıqdan sonra məzuniyyətə gələndə də ordumuzdan böyük sevgi ilə söz açırdı. Torpaqlarımızın işğaldan tez bir zamanda azad olunacağını qətiyyətlə danışırdı. Bir ömür qaysaq tutmayacaq yaram, doya-doya boynuna sarıla bilməsəm də, kölgəsində güvənlə gəzdiyim, ürəyimin sızıltısı, yanğısı... Bəzən oğlumun qoxusunu burnumda, bədəninin hərarətini əllərimdə hiss edirəm sanki...". Ana qəhərlənir...

"Mənim balamın da ən böyük arzusu torpaqlarımızın düşmən tapdağından azad olunması və üçrəngli bayrağımızın Qarabağda dalğalanmasını görmək idi...".

Elçin gözlərini qardaşının divardan asılmış şəklinə dikib. Gözlərinin dərinliyində qardaş itkisinin ağrı-acısına qarışmış məğrurluq duyulur. Baxışlarımın ona dikildiyini hiss eləyir deyəsən:

"Bayrağımızın uca olmağı, məğrur şəkildə dalğalanmağı mənim üçün hər şeydən vacibdir...", - dedi.

Nəzərlərini əmisinin şəklindən ayırmayan balaca Mələk bir gün dil açıb danışanda "Mənim əmim qəhrəmandır. Mən əmimlə fəxr edirəm", - deyəcək...

Şəhid bir ocağın ümid işığı, bir elin qürur mənbəyi, bir dövlətin təməlidir...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Avropa Liqası: "Qarabağ" qrup mərhələsində ardıcıl ikinci qələbəsini qazanıb




"Qarabağ" UEFA Avropa Liqasının qrup mərhələsində ikinci oyununu keçirib.

Ağdam təmsilçisi İsveçdə "Hekken" klubunun qonağı olub. "Ullevi" stadionunda oynanılan qarşılaşma Azərbaycan çempionunun 1:0 hesablı qələbəsi ilə başa çatıb. Ağdam klubunun qələbə topunu 70-ci dəqiqədə Juninyo vurub. Yassin Benzianın ötürməsindən sonra rəqib müdafiəçidən məharətlə yayınan braziliyalı hücumçu dəqiq zərbə ilə qapıçını məyus edib.

Bu qrupun digər oyununda Almaniya "Bayer"i Norveçdə "Molde"yə 2:1 hesabı ilə qalib gəlib.

İlk iki turdan sonra qrupa 6 xalla Leverkuzen təmsilçisi başçılıq edir. Eyni xala malik "Qarabağ" ikinci sırada qərarlaşıb. Ağdamlılar liderdən yalnız topların nisbətinə görə geri qalır. "Molde" üçüncü, "Hekken" isə sonuncu pillədə qərarlaşıb.

Qeyd edək ki, "Qarabağ" qrupda növbəti oyununu oktyabrın 26-da Almaniyada "Bayer" klubuna qarşı keçirəcək.

## Azərbaycanın gənc cüdoçusu dünya çempionu olub




Azərbaycanın gənc cüdoçusu Vüsal Qələndərzadə Portuqaliyanın Odivelas şəhərində keçirilən dünya çempionatında çempion olub.

73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız həlledici qarşılaşmada ABŞ təmsilçisi Cek Yonezukanı məğlubiyyətə uğradaraq qızıl medal qazanıb.

Qeyd edək ki, yarışın ilk günündə Nizami İmranov (60 kiloqram) yalnız finalda uduzaraq gümüş medala sahib çıxıb.

## Ağırlıqqaldırma üzrə Azərbaycan birinciliyi qadınların yarışı ilə start götürüb



Şüvəlandakı Ağır Atletika Akademiyasının yarış zalında gənc ağırlıqqaldıranlar arasında Azərbaycan birinciliyi start götürüb.

Yarışda ölkənin bütün regionlarından klub və cəmiyyətləri təmsil edən yüzə yaxın atlet iştirak edir.

Körpücük üzərinə ilk olaraq qadınlar çıxıblar. 49, 55, 59, 64, 71, 76, 81, 87 və +87 kiloqram çəki dərəcələrində müvafiq olaraq Sona Quliyeva, Selcan Qarayeva, Nigar Əliyeva, Fazilə İmanova, Zəhra Niftəliyeva, Günel Əliyeva, Rahilə Hüseynzadə, Mələk Hüseynli və Nuranə Məhərrəmova qalib olublar.

## İsveç klubunda oynayan futbolçu Azərbaycan millisinə dəvət alıb



İsveçin "Yurqorden" klubunda çıxış edən Musa Qurbanlı Azərbaycan milli komandasına dəvət alıb.

21 yaşlı hücumçu yığmanın AVRO-2024-ün seçmə mərhələsində Estoniya və Avstriya ilə keçirəcəyi oyunlara çağırılıb.

Gənc forvard oktyabrın 9-da milli komandanın düşərgəsinə qoşulacaq.

Qeyd edək ki, oktyabrın 13-də Estoniya yığmasının qonağı olacaq Azərbaycan millisi bundan üç gün sonra Bakıda Avstriya seçməsini qəbul edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

## Maraq dünyamız

# Mayya məbədləri



Mayya məbədləri başları kəsilmiş piramidaya oxşayır. Çünki ucu iti olan qədim Misir piramidalarından fərqli olaraq, onun üstündə meydança var. Divarın səthi də Misir piramidalarından fərqlənir - hamar deyil, pillələrdən ibarətdir. Bundan başqa, mayya konstruksiyalarında Misir piramidalarından fərqli olaraq, bir tərəfində binanın yuxarısına qalxmaq üçün hündür baş pilləkən var idi.

Məbədin yuxarısındakı meydançada Allahın "şəkli"ni yerləşdirmək üçün balaca bina tikirdilər. Orada Tanrının şərəfinə mərasimlər keçirilirdi. Mayya piramidalarının Misir piramidalarından daha bir fərqi onda idi ki, birinci məbəd, ikinci isə sərdabə (qəbir) idi. Hərdən mayyalılar öz hökmdarlarını məbəddə dəfn edirdilər, ancaq belə hal çox az olurdu.

**"Azərbaycan Ordusu"**

Baş leytenant Hümbətov Səid Mehman oğluna məxsus MN № 0049801 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 584
Nüsxə 4760